HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 27 (3493) Cümə axşamı / 3-9 avqust 2023-cü il Qiymәti 40 qәpik

# Meşəli soyqırımının qurbanları ədalət tələb edir

*Son günlər Laçında buraxılış məntəqəsi istiqamətində "humanitar TIR" səs-küyü ilə sakitliyi pozan Ermənistan və havadarları indi də başqa bəhanələrlə Azərbaycanın daxili işlərinə müdaxilə edirlər. Belə cəhdlərdən birinin qarşısı 2023-cü il 29 iyul tarixində alınıb. Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) nəqliyyat vasitəsilə Ermənistana qaçmaq istəyən Xocalı soyqırımının qatili, cinayətkar - Meşəli kəndində azərbaycanlılara qarşı kütləvi qırğın törətmiş Vaqif Xaçatryan Azərbaycan Dövlət Sərhəd Xidməti tərəfindən həbs edilib. Məsələ ilə bağlı Ermənistan tərəfinin ölkəmizə qarşı əsası olmayan iddiaları, beynəlxalq təşkilatların "hüquq, humanistlik" serenadası başlayıb.*



*10 ildir ki, bu adam beynəlxalq konvensiyaların da qadağan etdiyi soyqırımı və qanunsuz deportasiya cinayətlərinə görə axtarışda olub, artıq qanun qarşısında cavab verməlidir*

*Tarixi faktlar, sübutlar beynəlxalq qanunların pozulduğunu diqtə edir, qınayır*

"Həftə içi" Meşəli soyqırımını törədən erməni əsilli Xaçatryanın məhz beynəlxalq təşkilatın xidməti maşınında aşkar edilərək həbs olunması fonunda Azərbaycana qarşı yönələn tarixi, hüquqi, siyasi ədalətsizliyin kökünə və həlli yollarına diqqət çəkib.

■ **Milli Məclisin deputatı Elman Məmmədov "Həftə içi"nə Meşəli faciəsindən danışıb:**

- Meşəli Xocalı rayonunda Qırxqız dağının ətəyində, Meydan dağının yaxınlığında yerləşən çox gözəl, kiçik bir kənd idi. Xocalı rayon mərkəzindən, təxminən, 15-20 kilometr məsafədə yerləşirdi. O kəndin yolu Vadara kəndinin içərisindən keçirdi. Vadara kəndi ilə Meşəli arasında məsafə, təxminən, 5-6 kilometrdir. Hadisələr başlayanda həmin Vadara kəndində yaşayan, eləcə də Qayabaşı, Sarışın və sair kəndlərdəki erməni terrorçuları Meşəlini tam blokadada saxlayırdılar. Son gün o kəndə hücumda da, kənd camaatının qətlə yetirilməsində də ermənilər yaşayan kəndlərdəki quldur dəstələri iştirak etdilər. Başda Vaqif Xaçatryan kimiləri olmaqla, bu qırğının törədilməsində "366-cı alay"ın hərbi texnikası və hərbi qüvvəsi ermənilərin yanında idi. E.Məmmədov son 150 ilin tarixinə nəzər salaraq, ermənilərin türk-müsəlman millətinə, xalqlarına qarşı müxtəlif dövrlərdə mütəmadi olaraq qətliamlar, soyqırımlar törətdiyini qeyd edib: "Ermənilər cinayəti törədəndən sonra həmişə özləri, havadarları "Biz nə etmişik ki, heç bir günahımız yoxdur", - deyiblər. Yəni nə qədər əxlaqsız, tərbiyəsiz, həyasız olmaq lazımdır ki, həmin cinayətlərdən sonra bu ifadələri işlədəsən. İndi də bunlar Vaqif Xaçatryan Çərkəz oğlu haqqında deyirlər ki, "Günahsızdır"...



*Beynəlxalq Qırmızı Xaç Komitəsi o zaman da var idi. Biz bir dəfə də olsun, onların nə bir maşınını, nə də bir nümayəndəsini Xocalıda görmədik*

*Cinayətkar harada olmasından, gizlənməsindən asılı olmayaraq, hüquq qarşısında cavab verməlidir*

*Qətliam, soyqırımı kimi cinayətlər bəşəriyyətə qarşı olan cinayətərdir və bu cür cinayətlərdə zaman məfhumu rol oynamır*

- Onun günahları 1991-ci ildən sonra 1992-ci ilin yanvarında aparılan istintaq nəticəsində təsdiq olunub. Bu gün Xaçatryan və onun kimilərinin, rəhbərlik etdiyi quldur dəstəsinin Xocalıda, Meşəlidə, Malıbəylidə, Quşçularda, Qaradağlıda və Azərbaycanın başqa kəndlərində törətdikləri cinayətlərin sifarişçiləri, sahibləri var.

Əsirlikdə, girovluqda işgəncə verilmiş, hələ də sağ qalan insanlarımızın ifadələri var. Bu ifadələr 90-cı illərdə alınıb. Yəni, Xaçatryan cinayəti sübut olunmuş qatil, terrorçudur. Bu erməni ilə bağlı Azərbaycanın hüquq-mühafizə orqanlarında kifayət qədər əsaslandırılmış materiallar var. O, uzun müddət idi ki, beynəlxalq axtarşa verilmişdi. Onun həbsi Azərbaycan qanunları əsasında və beynəlxalq konvensiyalara uyğun aparılıb.

►► Səh. 3

